Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.184-190
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.184-190
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.184-190

**UOT:93(94)**
https://doi.org/10.30546/670832.2025.01.941

# Dünya mətbuatında ermənilərin Naxçıvana qarşı əsassız iddialarına dair

**Müəllif(lər):**

**Nurlana Əliyeva**
AMEA Naxçıvan Bölməsi
**E-poçt:** aliyevanurlana71@gmail.com

**Açar sözlər:** Naxçıvan, erməni iddiaları, dünya mətbuatı, qəzet, jurnal

**Annotasiya.** Məqalədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana qarşı əsassız erməni iddialarının dünya mətbuatında necə təbliğ olunduğu araşdırılır. Mövzunun aktuallığı ondan ibarətdir ki, hazırda informasiya müharibəsi şəraitində saxta tarixçilik və təhrif olunmuş mənbələrin geniş yayılması cəmiyyətin obyektiv tarixi biliklərinə ciddi təsir göstərir. Məqalənin məqsədi erməni diasporunun mətbuat vasitəsilə formalaşdırdığı yanlış təsəvvürləri ifşa etmək, bu iddiaların elmi-hüquqi əsassızlığını üzə çıxarmaq və Naxçıvanın qədim türk mədəniyyətinə məxsusluğunu sübut edən faktları elmi ictimaiyyətin diqqətinə çatdırmaqdır.

Tədqiqatda tarixi-müqayisəli təhlil, mənbəşünaslıq yanaşması və diskurs analizi metodlarından istifadə edilmişdir. Əsas mənbə kimi erməni mətbu orqanları, Azərbaycan və dünya alimlərinin elmi araşdırmaları, həmçinin arxeoloji və epiqrafik materiallar müqayisəli şəkildə təhlil olunmuşdur.

Araşdırmanın nəticələri göstərir ki, erməni mətbuatında Naxçıvanın “tarixi erməni torpağı” kimi təqdim olunması mifoloji süjetlərə və saxta tarixçilik üsullarına əsaslanır, lakin faktoloji və elmi dəlillərlə təsdiqlənmir. Əksinə, arxeoloji qazıntılar, yazılı mənbələr və toponimlər Naxçıvanın qədim dövrlərdən etibarən türk etnosunun yaşadığı ərazi olduğunu sübuta yetirir. Bu nəticə bir daha göstərir ki, Naxçıvan üzərində irəli sürülən erməni iddiaları beynəlxalq hüquq və elmi arqumentlərlə tam əsassızdır.

## On the unfounded armenian claims against Nakhchivan in the world press

**Author(s):**

**Nurlana Aliyeva**
Azerbaijan National Academy of Sciences, Nakhchivan Branch
**E-mail:** aliyevanurlana71@gmail.com

**Key words:** Nakhchivan, armenian claims, world press, newspaper, journal

**Abstract.** The article examines how the unfounded Armenian claims against Nakhchivan, an integral part of Azerbaijan, are promoted in the world press. The relevance of the topic lies in the fact that, in the current information warfare environment, the widespread dissemination of fake historiography and distorted sources significantly affects the society’s objective historical knowledge. Purpose of the article. The purpose of this article is to expose the misconceptions created by the Armenian diaspora through the media, reveal the scientific and legal baselessness of these claims, and draw the attention of the scientific community to facts proving Nakhchivan’s belonging to ancient Turkic culture.

The study employs historical-comparative analysis, source criticism, and discourse analysis methods. The main sources analyzed comparatively include Armenian media outlets, scientific research by Azerbaijani and international scholars, as well as archaeological and epigraphic materials.

Findings. The results of the research show that the portrayal of Nakhchivan as “historical Armenian land” in the Armenian press is based on mythological narratives and pseudo-historical methods, but it is not supported by factual or scientific evidence. On the contrary, archaeological excavations, written sources, and toponyms demonstrate that Nakhchivan has been inhabited by the Turkic ethnic group since ancient times. These findings further confirm that Armenian claims over Nakhchivan are entirely unfounded according to international law and scientific arguments.

## О необоснованных претензиях армян к Нахчывану в мировой прессе

**Автор(ы):**

**Нурлана Алиева**
Нахчыванское отделение НАНА
**Э-почта:** aliyevanurlana71@gmail.com

**Ключевые слова:** Нахчыван, армянские претензии, мировая пресса, газета, журнал

**Аннотация.** В статье исследуется, как в мировой прессе пропагандируются необоснованные армянские претензии к Нахчывану, который является неотъемлемой частью Азербайджана. Актуальность темы заключается в том, что в настоящее время в условиях информационной войны ложный историзм и широкое распространение искаженных источников серьезно влияют на объективные исторические знания общества. Целью статьи является разоблачение заблуждений, сформулированных армянской диаспорой через прессу, выявление научно-правовой необоснованности этих утверждений и доведение до сведения научного сообщества фактов, доказывающих принадлежность Нахчывана к древнетюркской культуре.

В исследовании использованы методы историко-сравнительного анализа, источниковедческого подхода и анализа дискурса. В качестве основного источника были сравнительно проанализированы армянские органы печати, научные исследования азербайджанских и мировых ученых, а также археологические и эпиграфические материалы.

Результаты исследования показывают, что представление Нахчывана в армянской прессе как «исторической армянской земли» основано на мифологических сюжетах и ложных методах историзма, но не подтверждается фактологическими и научными данными. Напротив, археологические раскопки, письменные источники и топонимы доказывают, что Нахчыван с древних времен был территорией проживания тюркского этноса. Этот вывод еще раз свидетельствует о том, что армянские претензии на Нахчыван совершенно необоснованны с точки зрения международного права и научных аргументов.

**Giriş.** Bu gün Azərbaycan tarix elminin qarşısında duran ən mühüm vəzifələrdən biri ermənilərin öz təcavüzkar ideyalarını reallaşdırmaq üçün xalqımıza qarşı həyata keçirdikləri soyqırım, deportasiya, ərazi iddialarının köklərini, mərhələlərini açıb göstərməkdən ibarətdir. Erməni şovinizmi yalnız Azərbaycan xalqı üçün deyil, qonşu xalqlar və bütün bəşəriyyət üçün də ciddi təhlükələr yaradır.

Çox təəssüf ki, indiyə qədər dünya ictimaiyyətinin ermənilərin insanlığa qarşı yönəlmiş bu zidd hərəkətləri haqqında məlumatı kifayət qədər çox olsa da, erməni təbliğatının və ermənipərəst mətbuatın səyləri nəticəsində onların "əzabkeş millət" obrazı yaradılmışdır. Ermənilər uzun illər ərzində dünyanın müxtəlif ölkələrində erməni və digər dillərdə çoxsaylı mətbuat orqanları yaratmış, bu qəzet və jurnalların səhifələrində Naxçıvana qarşı da uydurma ərazi iddialarını əks etdirən xəbərlərə, məlumatlara yer vermişlər.

**Material və metodlar.** Bu məqalənin yazılmasında əsas məqsəd, erməni ideologiyasının və diaspor mətbuatının Naxçıvan bölgəsinə qarşı irəli sürdüyü əsassız ərazi iddialarının beynəlxalq informasiya məkanında necə təbliğ edildiyini araşdırmaq, bu iddiaların elmi, tarixi və hüquqi baxımdan əsassız olduğunu sübut etməkdir. Tədqiqat işində aşağıdakı metodlardan istifadə olunmuşdur:

– **Tarixi-analitik metod:** Naxçıvanın qədim tarixini əks etdirən mənbələr (arxeoloji tədqiqatlar, yazılı abidələr, tarixi sənədlər) əsasında bu ərazinin türklərə məxsus olduğunu sübut edən faktlar toplanmış və təhlil olunmuşdur.

– **Mətn və diskurs analizi:** Dünya mətbuatında və erməni informasiya vasitələrində (qəzet, jurnal, veb portallar) yer alan yazılar, məqalələr və kitablar təhlil edilmiş, onlarda istifadə olunan mifoloji və ideoloji konstruksiyalar araşdırılmışdır.

– **Komparativ təhlil metodu:** Erməni mənbələrindəki iddialar ilə beynəlxalq və yerli alimlərin elmi nəticələri müqayisə edilmiş, təzadlar üzə çıxarılmışdır.

– **İstinad və bibliometrik metod:** Məqalədə çoxsaylı yerli və xarici mənbələrə (kitab, məqalə, elektron resurslar) istinad edilmiş, onların təhlili əsasında ümumiləşdirilmiş nəticələr çıxarılmışdır.

– **Empirik məlumatların toplanması:** Ermənistan və erməni diasporunun nəşr etdirdiyi mətbuat orqanları, eləcə də onların təbliğat vasitəsi kimi çıxış edən internet saytları üzrə geniş məlumat bazası yaradılmışdır.

Bu metodoloji yanaşma vasitəsilə, Naxçıvanla bağlı uydurma erməni iddialarının mahiyyəti və məqsədi ifşa olunmuş, tarixi reallıqlara əsaslanan elmi mövqelər önə çəkilmişdir. Əldə olunan nəticələr, həm də informasiya müharibəsində elmi əsaslı arqumentlərin zəruriliyini ortaya qoyur.

Erməni mətbuatının coğrafi yayılması və ideoloji məqsədləri. Apardığımız təhlillər göstərir ki, Argentinada erməni və ispan dillərində "Diario Armenia", "Sardarabad", Avstraliyada "Armenian News from Australia", "Armenia Online Australia", Kanadada erməni, fransız və ingilis dillərində "Abaka", "Ardziv – Արծիւ", "Horizon – weekly", erməni və ingilis dillərində "Torontohye", Kiprdə yunan, ingilis və erməni dillərində "Artsakank", erməni dilində "Azad Tsayn", "Keghart", Misirdə ərəbcə "Arek", ermənicə "Arev", "Deghegadou", "Housaper", "Tchahagir", Fransada erməni və fransız dillərində "Gamk", ermənicə "Haratch", "Nor Haratch", Gürcüstanda "Miutyun", "Vrastan", Yunanıstanda "Armenika Magazine", "Azat" "Nor Ashkharh", Hindistanda "Azdarar", İranda "Alik", "Arax", Livanda "Ararad", "Aztag", "Massis", "Zartonk", Polşada polyak və erməni dillərində "Awedis", Rusiyada "Aniv", "Armenian Times", "Gortsarar" "Havatamk", "Noev Kovcheg", Suriyada "Kantsasar", Birləşmiş Krallıqda "Armenian Voice", ABŞ-da "AMN Hye Kiank", "Armenian Life", "Armenian Mirror-Spectator", "Armenian Observer", "Armenian Reporter", "Armenian Weekly", "Asbarez", "Baikar", "California Courier", "Hairenik", "Massis", "Nor Hayastan", "Nor Or", "Oragark", İtaliyada "Akhtamar" kimi çoxsaylı qəzet və jurnallar dərc edilir.

Bu uydurmalara nümunə olaraq Rusiyada dərc edilən "Noev Kovcheg" qəzetində erməni müəllifi Aleksandr Svarantsın "Naxçıvan üç sivilizasiyanın qovşağında" məqaləsindəki aşağıdakı fikirləri göstərə bilərik:

"Qarabağ, Zəngəzur və Naxçıvan rayonlarında çıxışların baş verməsi mahiyyətcə bir-birinə bağlıdır və bütün bunlar əvvəlcədən düşünülmüş

və hazırlanmış proqrama uyğun olaraq reallaşır. Şübhəsiz ki, bütün bunlar Ermənistan hökumətinə qarşı həyata keçirilir və məqsəd müsəlmanların hakimiyyətini gücləndirməklə erməniləri Tatar halqası ilə əhatə etməkdir.... 1991-1994-cü illərdə Qarabağ hərbi münaqişəsi zamanı Ermənistan heç vaxt Naxçıvana iddia qaldırmağa cəsarət etməyib, sərhəd boyu ayrı-ayrı atışmalar istisna olmaqla, döyüş əməliyyatları Naxçıvan ərazisinə toxunmayıb. Baxmayaraq ki, Naxçıvan muxtariyyətinin Ermənistan-Azərbaycan münaqişəsi şəraitində Dağlıq Qarabağla bağlı anklavda qalması bu respublikanın sosial-iqtisadi vəziyyətini və təhlükəsizlik risklərini daha da ağırlaşdırır...” [12].

Təbii ki, bu cür iddiaların heç bir tarixi və hüquqi əsası yoxdur. Adıçəkilən üç bölgət XIX əsrə qədər heç bir zaman ermənilərin kütləvi üstünlük təşkil etdildiyi ərazilər olmamışlar.

Ümummilli lider Heydər Əliyevin 2001-ci il martın 28-də “31 mart – Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti”ndə deyilir: “Erməni millətçiləri və şovinistləri “Böyük Ermənistan” xülyalarını həyata keçirmək üçün lap əvvəldən xalqımıza və ölkəmizə qarşı ustalıqla və davamlı surətdə informasiya və təbliğat müharibəsi aparmışlar. Total qarayaxma kompaniyası, çirkin təbliğat müharibəsi bu gün də davam edir. Ən müxtəlif üsul və vasitələrdən istifadə edən erməni şovinistləri dünya ictimaiyyətini çaşdırır, Azərbaycanın və bütün Qafqazın tarixini saxtalaşdırır, azərbaycanlılara qarşı mənəvi təcavüz kompaniyası aparır, dünya ictimaiyyətinin nəzərində “əzabkeş, məzlum erməni xalqı” obrazı yaradırlar. Erməni icmaları, erməni lobbisi bu istiqamətdə onilliklər boyu ardıcıl iş aparır. Nəticədə ermənilərin Azərbaycan xalqına qarşı bu gün törətdiyi işğal və soyqırım faktlarına biganə qalan dünya dövlətlərinin parlamentləri guya 100 il əvvəl baş verdiyi iddia edilən hadisələr barədə yanlış, siyasi konyunkturaya uyğunlaşdırılmış qərarlar qəbul edir, öz hərəkətləri ilə təcavüzkarı şirnikləşdirirlər. Öz müvəqqəti və ardıcıl uğurlarından vəcdə gəlmiş erməni siyasətçiləri və ideoloqları, bütöv xalqlara nifrət ideologiyasının açıq və maskalanmış daşıyıcıları beynəlxalq hüquq normalarına meydan oxuyur, planetimizdə bərqərar olmuş, sivil birgəyaşayış normalarını kobudcasına pozurlar” [5, s. 21].

Məlumdur ki, ermənilər Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış etməkdə və bu iddialarını qanuniləşdirmək üçün saxta tarixçilik metodologiyasına müraciət etməkdə, hətta məsələyə siyasi və dini baxımdan da yanaşmaqdadırlar. Şübhəsiz ki, buna rəvac verən müxtəlif məqamlar vardır. Heç təsadüfi deyildir ki, bu iddialar dünya mətbuatında sıx-sıx gündəmə gətirilərək, Azərbaycana və ümumiyyətlə, türklüyə qarşı mənfi rəylərin formalaşmasına səbəb olmuşdur. Ermənilər tərəfindən istər internet saytlarında, istərsə də dərc olunan kitab, məqalə və dövri mətbuatlarda Naxçıvanın hal-hazırda Azərbaycanın sərhədləri daxilində olmasına baxmayaraq, guya tarixən erməni ərazisi olduğu şəklində əsassız iddialara yer verilməkdədir. Bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, onlar məsələyə vəd olunmuş torpaqlar çərçivəsində baxırlar.

Məhz, bu siyasətin nəticəsidir ki, Birləşmiş Ərəb Əmirliyinə məxsus internet saytlarından birində, Yaxın Şərq ermənilərinin “Azad-Hye” adlı internet portalında Suriya ermənilərindən olan yazıçı Avo Katerçiyanın “Ermənistan Naxçıvanı, yaxud təhrif olunmuş Naxçıvan” adlı kitab yazması haqqında məlumat verilir. Kitabdan aydın olur ki, “yazıçı-tədqiqatçı” burada Naxçıvan tarixinə aid faktları saxtalaşdırmış, Naxçıvanı tarixi Ermənistan ərazisi kimi təqdim etmiş, qədim yaşayış məskənlərimizin adlarını erməniləşdirmiş, coğrafi adları təhrif olunmuş formada oxuculara çatdırmışdır.

Tanınmış Amerika alimi Səmyuel A. Vimz yazmışdır ki, “üç min ildən artıq dövrdə ermənilərin heç bir milli torpağı olmamışdır, indi isə onlar tarixin zibil qablarından müftə-müsəlləm “tarixi, milli ərazilər” iddiasına düşmüşlər” [8, s. 252].

Ermənilər illərdir Naxçıvanın siyasi tarixi haqqında ağ yalanlar uydururlar. Ermənilər arasında yayğın olan ənənəvi düşüncəyə görə, Naxçıvan da daxil tarixi türk torpaqları Hz. Nuh tərəfindən guya ermənilərə vəd edilmişdir.

Erməni tarixçisi Mikael Vardabet Çamıçyanın 1811-ci ildə İtaliyada nəşr edilmiş “Ermənilərin tarixi” adlı kitabında qeyd edilir:“… Tufandan sonra Nuhun oğulları Yafəs, Sam və Ham Araratda məskunlaşaraq törəyib çoxaldılar. Sam oğlanları ilə birlikdə şimal-qərbə, Ham

ilə Yafəs də oğlanları ilə birlikdə Ermənistanın müxtəlif ərazilərinə yayıldılar. Hamın övladları qərb hüdudlarında, Yafəsin oğlanları da Ararat dağı ətrafında məskunlaşdılar. Onların bir qismi Mesopotamiya tərəflərinə getdilər ki, Yafəsin nəvələrindən olan və ermənilərin atası olaraq qəbul edilən Hay (və ya Hayk) da onların içərisində idi. Babil qalasının inşasında iştirak edən Hayk 130 yaşında ikən bu qalanın yıxılması səbəbiylə oğulları və nəvələri ilə birlikdə Ermənistana gəldi. Onların hamısı eyni dildə, eyni ləhcədə danışırdılar və böyük ehtimalla bu dil ermənicə idi. Yafəsdən Qomer, Qomerdən Torqom, Askenaz, Torqomdan da Hayk əmələ gəldi. Hayk ata və ya baba mənasındadır. Haykdan da millətimiz ortaya çıxdı. Yəni bir millətin atası olduğu üçün ona Hayk adı verilmişdir. Bizim tariximiz Haykdan başlayır…" [11, s. 25-26].

Deyilənlərdən belə çıxır ki, Nuh peyğəmbər erməni imiş, erməni olduğuna görə də onun və övladlarının ayaq basdığı torpaqlar ermənilərə məxsus olmalıdır. Ermənilər Qafqaz və Şərqi Anadolu bölgələrinin bir zamanlar məhz Hz. Nuhun nəvəsinin nəvəsi olan Haya vəd edildiyini önə sürürlər. Məhz bu baxımdan erməni ideologiyası "seçilmiş millət və vəd olunmuş torpaqlar" iddiaları üzərində yaranıb möhkəmlənmişdir.

Göründüyü kimi, ermənilər müqəddəs dini kitablarda adı çəkilən Nuh peyğəmbərin erməni mənşəli olduğuna inanırlar. Ağrı dağının adı Bibliyada "Ararat" olaraq keçir. "Ararat" kəlməsinin ermənilərlə və erməni dili ilə heç bir əlaqəsi yoxdur. Bildiyimiz kimi, Urartu tayfaları Asiya mənşəli xalq olduğu üçün hay ola bilməzdilər. Haylar isə Hind-Avropa dilli xalqdır. Digər tərəfdən, qeyd edək ki, bu dağ Bibliyada "Ararat" şəklində yazılmışdır, halbuki Bibliyanın ortaya çıxdığı dövrlərdə erməni millətindən və dilindən söhbət gedə bilməzdi.

Hal-hazırda erməni kimliyi də məhz həmin iddialar üzərində möhkəmlənmişdir. Məlumdur ki, bu cür iddialar elm adına heç bir gerçəyi özündə əks etdirmir. Bütün bunlar mifoloji təxəyyüllərə əsaslanan əfsanəvi iddialardır. Məsələyə dini tərəfdən yanaşdıqda, bəşəriyyətin ilk atası Adəm peyğəmbər sayıldığı kimi, Dünya Tufanı səbəbiylə bəşəriyyətin ikinci atası da Nuh peyğəmbər sayılır. Belə bir halda, hər hansı milli mənsubiyyətdən danışmaq düğün olmazdı [1].

Bu fikirlərin heç bir elmi əsası yoxdur və erməni alimlərinin uydurmalarıdır. Arxeoloji, tarixi-coğrafi tədqiqatların nəticələri göstərir ki, Naxçıvan diyarı tarixən Azərbaycanın ayrılmaz tərkib hissəsi, ayrılmaz ərazisi olmuşdur [2, s. 130]. Tarixi mənbələr və arxeoloji materiallar göstərir ki, eramızdan əvvəl IV-II minilliklərdə Naxçıvan ərazisində yaranan böyük tayfa ittifaqları Azərbaycan xalqının formalaşmasında əhəmiyyətli rol oynamışdır. Naxçıvanda aşkar edilən daş və metal dövrünə aid abidələr, Gəmiqayadakı sərt qayalar üzərində çəkilmiş iki minə yaxın müxtəlif təsvirlər, sənətkarlıq baxımından önəmli olan boyalı qablar mədəniyyəti və inkişaf etmiş qədim şəhərsalma izləri bu bölgənin qədim türk yurdu və ilkin sivilizasiya mərkəzlərindən biri olduğunu sübut edir..

Naxçıvan sözü də bu ərazidə yaşamış qədim tayfalardan biri olan "naxç"ların adı ilə bağlıdır [4, s.28]. Bizim eranın əvvəllərindən başlayaraq Naxçıvan ərazisinə bulqar, hun, peçenek, kəngər və xəzər tayfaları gəlmişlər. Adı çəkilən tayfaların onlarla qol və tirələri bu bölgədə məskunlaşmışlar. Naxçıvan bölgəsində habelə Səlcuq oğuzlarının bəkdilli, xələc, yaycı və başqa tayfaları da iz qoymuşlar. Türk tayfalarından ustaclı, didivarlı, qızıllı, əmrxanlı, ərəfsəli, hacılı, keçili, kəlfirli, kolanılı, qaraxanbəyli, qarxunlu, əlixanlı, muğanlı və onlarla başqaları bölgənin aborigen xalqları olmuş, bu gün də Naxçıvan Muxtar Respublikası ərazisində həmin tayfaların adları ilə bağlı yaşayış məskənləri mövcuddur [2].

Bütün bunlar bir daha onu təsdiq edir ki, Naxçıvan ərazisində qədimdən türk mənşəli etnoslar yaşamışlar. Tarixin heç bir mərhələsində ermənilərlə bağlı Naxçıvan diyarında yer adı olmamış və bu gün də yoxdur. Naxçıvan ərazisi uzun əsrlər ərzində bir-birini əvəz edən Manna, Midiya, Əhəmənilər imperiyası, Atropatena, Parfiya, Sasanilər və b. dövlətlərin tərkibində olmuş və həmin dövlətlərin ən inkişaf etmiş əyalətlərindən biri olmuşdur. Naxçıvan qədim zamanlardan bu günə kimi müxtəlif böyük dövlətlərin tərkibində olduqda da Azərbaycanın ayrılmaz tərkib hissəsini təşkil etmişdir.

Naxçıvan haqqında Yerevanda və xarici ölkələrdə bir çox kitablar nəşr olunur. Məsələn, Almaniyada fəaliyyət göstərən "Erməni memarlığını öyrənən təşkilat" "Naxçıvan" adlı kitabal-

bom nəşr edərək, Naxçıvanın "erməni torpağı" olmasını "sübut" etmək iddiasına düşmüşdür [3, s. 6].

Beləliklə, Naxçıvanın Azərbaycan tərkibində qalması məsələsi qəti həll olundu. Bu, Ermənistanın Naxçıvana yiyələnmək cəhdlərinin, habelə Moskvanın müəyyən rəhbər dairələrinin və Orconikidzenin Naxçıvanı Ermənistana vermək uğrunda uzun müddət ərzində apardıqları mübarizənin boşa çıxması demək idi.

Erməni xadimlərinin Naxçıvana iddialarında digər "tutarlı dəlil" Naxçıvan əhalisinin milli tərkibinə aiddir. Erməni müəllifi R.Yengibaryana görə, guya ermənilər Naxçıvan əhalisinin 80%-ni təşkil etmişlər. Balayan iddia edir ki, guya sovet dövründə Naxçıvandan 150 min erməni həmişəlik öz yurdlarından didərgin düşüb. Mikaelyan yazır ki, "Naxçıvan əhalisinin 55 %-ni təşkil edən ermənilər Sovet Azərbaycanının "ardıcıl olaraq yeritdiyi aparteid siyasəti", Azərbaycanda "ermənilərin və qeyri azərbaycanlıların ağ genosidi nəticəsində" "tamamilə sıxışdırılıb çıxarılmışdır". Biri digərini rədd edən bu iddiaların hamısı ağ yalandır, uydurmadır [3].

Uzun müddət Türkiyədə Rusiyanın diplomatik nümayəndəsi işləmiş V.V.Mayevski qeyd edir ki, "həqiqət yoxdur, çünki erməni müəllifləri həqiqətdən qaçırlar. Onların bütün fəaliyyəti elə yalan-palanlar, elə eşidilməmiş qəddarlıqlar uydurmaqdan ibarətdir ki, bunlar ermənilərə simpatiya, türklərə antipatiya doğursun" [3, s.12].

Dünyanın bəzi dövlətlərinin informasiya və mətbuat orqanlarında "Erməni məsələsi"nin özünəməxsus yeri vardır. Xüsusilə bu məsələ ilə bağlı çoxşaxəli informasiyalar hər ilin aprel ayından başlayıb, may ayının sonlarına qədər davam edir. Amma son dövrlərdə nəinki aprel-may aylarında, hətta ilin bütün aylarında bu məsələyə yer ayırmışdır.

Məsələn, Fransada 3 aylıq jurnallardan "Les Nouvelles d'Armenie", "Azad Magazine", iki həftəlik jurnallardan "Achkhar", "Lettre de UGAB", iki günlük qəzetlər "Gamk" və "Haratch" yayınlanmaqdadır. Fransız ictimaiyyətinə anti türkçülük ideyaları ilə bağlı saxta məlumatlar "Le Monde", "Liberation", "Le Figaro", "Le Canard Enchaine" kimi ictimaiyyətdə mətbuat orqanları tərəfindən çatdırılmaqdadır [9, s. 242].

ABŞ-da isə ümumi mətbuat orqanları arasında erməni iddialarına ən böyük dəstəyi "New York Times" qəzeti verməkdədir. ABŞ və Kanadadakı erməni mətbuat orqanları Hınçak və Daşnaksütyun partiyaları tərəfindən yönləndirilir [10, s.90]. Erməni araşdırmalarına dair ABŞ-da təxminən 17 dövri mətbuat mövcuddur ki, bunların 5-i Kaliforniyada, 3-ü Nyu Yorkda, 4-ü Massaçusetsdə, 2-si Ohayoda, digərləri isə Vaşinqton, Miçiqan və İllinoysdə nəşr edilməkdədir. Bu dövri mətbuatların 4-ü erməni və ingilis dillərində, 13-ü isə tamamilə ingilis dilində çıxmaqdadır.

Qeyd edək ki, TV va radio proqramlarında türklüyə yönəlik bölücülük, düşmənçilik, kin və nifrət aşılayan verilişlər efirə ötürülməkdədir. Türk-Amerikan Dərnəkləri Federasiyası Başqanı Egemen Bağışın ermənilər tərəfindən TV və radio kanalları vasitəsilə türkçülüyün əleyhinə düşmənçilik hisslərinin aşılanması, gənclərin beyinlərinin nifrət və intiqam psixologiyası ilə doldurulması, hətta təhqiramiz sözlərdən istifadə edilməsi ilə bağlı dediyi sözlər olduqca düşündürücüdür: "Çox vaxt azyaşlı erməni uşaqlarını verilişə dəvət edirlər. Buna misal olaraq, belə verilişlərdən birinə dəvət edilən 5 yaşındakı erməni qızına "köpək" deyildiyi zaman, ilk olaraq ağlına nəyin gəldiyini soruşduqlarında, azyaşlı qız, "türklər" cavabını verir. Yəni bu beyin doldurma taktikası çox kiçik yaşlardan etibarən başlayır" [10, s.94].

Bu, həqiqətən də azyaşlı və ya çoxyaşlı olmasına baxmayaraq, həm bütün ermənilərin, həm də yaxından-uzaqdan "erməni məsələsi" ilə tanış olmayanların beyinlərini dəyişdirmə taktikasıdır.

Ermənilər bunun kimi yüzlərlə mətbuat orqanı və TV kanalları vasitəsilə Azərbaycan və Türkiyənin beynəlxalq aləmdə imicini zədələməyə və torpaq iddialarını gündəmə gətirməyə davam edirlər. Belə ki, qondarma erməni soyqırımı, ermənilərin guya tarixi ərazilərindən qovulması, ilk xristian millətini şəhid edən vəhşi türklər və onların erməni düşmənçiliyi və s. bu kimi məsələlər sıx-sıx gündəmə gətirilməkdədir.

Dünya mətbuaında Azərbaycanın bəzi regionları, ancaq ən başlıcası, onun ayrılmaz parçası olan Naxçıvanla bağlı erməni iddialarını xüsusilə diqqəti cəlb edir. Heç təsadüfi deyildir ki, son dövrlərdə Naxçıvandakı tarixi memarlıq abidələrinin guya ermənilərə məxsus olması, eyni zamanda xaçkarların dağıdılması məsələsi nüfuzlu

beynəlxalq qurumların müzakirə obyektinə çıxarılmışdır. Şübhəsiz ki, bu cür iddialar daha əvvəllər də önə sürülürdü, ancaq günümüzdə bu təzyiq və hücumlar daha geniş xarakter almışdır.

Naxçıvanla bağlı digər iddialar isə Arqam Ayvazyanın ingilis dilində nəşr etdirdiyi "Jugha", "Nakhjivan Book of Monuments", K.Patkanyanın "Choice Selections from Armenian Chronicles" adlı əsərlərində, İsveçrə-Ermənistan Parlament Qrupunun Berndə nəşr etdirdikləri "The destruction of Judja" adlı kitabda rast gəlmək mümkündür.

Qısaca olaraq onu deyə bilərik ki, müxtəlif dillərə tərcümə edilən yüzlərlə kitab, məqalə və informasiyalar vasitəsilə ermənilər iddia etdikləri ərazilərə siyasi, inzibati-ərazi baxımından deyil, həmçinin qədim mədəniyyət baxımından da sahib olduqlarını sübut etməyə çalışırlar. İddialar var və olacaq, lakin tarixi türk torpağı olan Naxçıvan keçmişdə olduğu kimi, bu gün də özünün "Türk qapısı" kimliyini qoruyur və mühafizə edir.

Naxçıvana qarşı əsassız iddialar Zori Balayan, Avo Katerciyan, Arqam Ayvazyan, Sergey Şakaryants, Mqer Arutyunyan və başqaları tərəfindən də önə sürülməkdədir. Bu müəlliflər tərəfindən irəli sürülən iddialarda Naxçıvan tarixi Ermənistan ərazisi kimi tanıtdırılır, yalan sazişlərin qurbanı kimi göstərilir və eyni zamanda guya erməni mədəni irsinin guya azərbaycanlılar tərəfindən həvəslə dağıdılması, daş xaçlara qarşı edilən vəhşiliklər qeyd olunur.

Erməni tarixçisi Manuk Abekyan, ermənilərin kim olduqlarını və harada təşəkkül tapdıqları barədə yazır ki, "…erməni xalqının mənşəyi nədir, necə və nə vaxt, haradan və hansı yollarla buralara gəlmişlər, erməni olmazdan əvvəl və sonra hansı xalqlarla əlaqələr qurmuşlar, onun dilinə, etnik mənsubiyyətlərinə kimlər necə təsir göstərmişdir? Bizim əlimizdə bunları isbatlayan açıq və dəqiq məlumatlar yoxdur…" [7].

Bu irs mədəni oğurluq üzərində qurulmuşdur. Heç təsadüfi deyildir ki, ermənilər yer üzünün ilk xristian milləti kimi gülünc obrazlarla dünya ictimaiyyətinin beynini qarışdıraraq Naxçıvanda və Azərbaycanın digər bölgələrindəki abidələri tarixi erməni abidələri şəklində tanıtdırmaqda və bu surətlə reallıqları saxtalaşdıraraq, bunları qonşu ölkələrin torpaqları üzərindəki ekspansional əməllərinə vasitə etməkdədirlər.

Qaynaqlar ermənilərin çirkin siyasətlə Naxçıvana köçürülməsindən sonra burada zaman-zaman gizli, və ya aşkar şəkildə həm insanlara, həm də yer adlarına qarşı soyqırım törətdiklərini sübut edir. Mövzunun aktuallığını nəzərə alaraq, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmlər üzrə fəlsəfə doktoru Firudin Rzayev qeyd edir ki, "Başqa xalqların tarixindən oğurlanmış "erməni tarixi" bu gün bəzi dövlətlərin siyasi marağı fövqündə tarixə daxil olur, muzdlu tarixçilər tərəfindən müdafiə olunmaqla konfliktlərə, müharibələrə, soyqırımlara yol açır. Azərbaycan xalqı bu acıların canlı şahidləridir" [6].

**Nəticə və müzakirə.** Aparılan tədqiqat nəticəsində aydın olmuşdur ki, erməni ideologiyası və diaspor mətbuatı uzun illərdir Naxçıvanla bağlı sistemli və məqsədyönlü təbliğat fəaliyyəti həyata keçirir. "Əzabkeş erməni xalqı" obrazı üzərindən qurulan bu informasiya hücumlarının arxasında həm ideoloji manipulyasiya, həm də siyasi ambisiyalar dayanır. Müxtəlif dillərdə nəşr edilən yüzlərlə qəzet, jurnal və elektron resurslar vasitəsilə beynəlxalq ictimaiyyətin diqqəti manipulyativ və saxta tarixi iddialarla yönləndirilir. Bu iddiaların əsas hədəfi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsini qeyri-qanuni şəkildə "tarixi erməni torpağı" kimi təqdim etməkdir.

Məqalədə toplanmış faktlar, Naxçıvanla bağlı aparılmış arxeoloji qazıntılar, tarixi mənbələr və toponimik dəlillər ermənilərin uydurma iddialarını tam şəkildə ifşa edir. Bu baxımdan, son illər həm yerli, həm də xarici alimlər tərəfindən aparılan elmi araşdırmaların beynəlxalq səviyyədə yayılması və bu sahədə geniş informasiya resurslarının yaradılması xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq mətbuatda yer alan təhrif olunmuş materiallar yalnız tarixi saxtalaşdırmaqla kifayətlənmir, eyni zamanda türklüyə və İslam mədəniyyətinə qarşı düşmənçilik, nifrət və bölücülük ideyalarını da təşviq edir. Bu, xüsusilə azyaşlı erməni nəsillərinin yetişdirilməsində təhlükəli nəticələr doğurur və gələcək nəsillər arasında etnik qarşıdurmaların dərinləşməsinə xidmət edir.

Araşdırmanın nəticələri göstərir ki, informasiya müharibəsində ən güclü silah elmi əsaslı tədqiqatlar, tarixi gerçəkliklər və beynəlxalq hüquqa söykənən həqiqətlərdir. Bu baxımdan, Azərbaycan alimləri və müvafiq qurumları Naxçıvanın tarixinin obyektiv tədqiqi və bu həqiqət-

lərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətlərini daha da gücləndirməlidirlər.

**Yekun nəticə.** Aparılan tədqiqatlar bir daha sübut edir ki, erməni ideologiyası, xüsusilə də erməni diasporunun mətbuat və informasiya vasitələri üzərindən apardığı təbliğat, Naxçıvanın Azərbaycan torpaqlarından biri olması faktını inkar etməyə yönəlmiş sistemli fəaliyyətin tərkib hissəsidir. Erməni tərəfi əsassız iddialarını tarixi və dini mifologiyalar üzərindən əsaslandırmağa çalışmaqla bərabər, beynəlxalq ictimaiyyətin rəğbətini qazanmaq üçün yalançı "əzabkeş millət" obrazı formalaşdırmış və bu stereotipi informasiya müharibəsinin əsas alətinə çevirmişdir.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, dünyanın müxtəlif ölkələrində nəşr olunan erməni mətbuatı vasitəsilə, xüsusilə də qəzet və jurnalların səhifələrində Naxçıvana dair təhrif olunmuş, uydurma iddialar yayılır. Bu isə təkcə Azərbaycanın ərazi bütövlüyünə deyil, eyni zamanda beynəlxalq hüquq normalarına da açıq-aşkar hörmətsizlikdir. Digər tərəfdən, yerli və xarici alimlərin Naxçıvan ərazisində apardıqları tarixi-arxeoloji tədqiqatların nəticələri bu torpağın qədim dövrlərdən bəri türk etnoslarına mənsub olduğunu elmi şəkildə təsdiqləyir. Gəmiqaya təsvirlərindən tutmuş, toponimika və abidə komplekslərinə qədər bütün material sübutlar Naxçıvanın Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsi olduğunu nümayiş etdirir. Eyni zamanda, bu tədqiqat göstərir ki, erməni saxtakarlığının ifşa olunması yalnız tarixi faktların ortaya qoyulması ilə deyil, həm də beynəlxalq auditoriyada bu faktların düzgün şəkildə təqdim edilməsi ilə mümkündür. Bu məqsədlə, Azərbaycan elmi ictimaiyyəti, xüsusilə tarixçilər, filoloqlar, media mütəxəssisləri və diaspor təşkilatları birgə şəkildə fəaliyyət göstərməli, Naxçıvana dair obyektiv elmi və tarixi həqiqətləri dünya mətbuatına daşımalıdırlar.

Sonda qeyd etmək lazımdır ki, informasiya müharibəsinin getdikcə daha da gücləndiyi bir dövrdə, tarixi saxtalaşdırma cəhdlərinə qarşı elmi əsaslı, sənədlərlə təsdiqlənmiş və faktlara söykənən cavabların hazırlanması və yayılması dövlətin informasiya təhlükəsizliyi baxımından da mühüm əhəmiyyət daşıyır. Tarixi türk torpağı olan Naxçıvan, keçmişdə olduğu kimi, bu gün də Azərbaycanın "Türk qapısı" olaraq mədəni və geosiyasi mövqeyini qoruyub saxlayır.

**Ədəbiyyat**


1. Ermənilərin Naxçıvan iddiası… Uydurma tarix: [Elektron resurs] / Böyük millət, – 2024. URL: https://boyukmillet.com/erm-nil-rin-naxc-van-iddias-uydurma-tarix/
2. Hacıyev, İ. Naxçıvan tarixinə dair qaynaqlar / İ.Hacıyev, E.Kəlbizadə. – Bakı: Elm və təhsil, – 2018. – 238 s.
3. Köçərli, T.Q. Naxçıvan: uydurmalar və tarixi həqiqətlər / T.Q. Köçərli. – Bakı: Təknur, – 2005. – 170 s.
4. Məmmədov, R. Naxçıvan şəhərinin tarixi oçerki / R. Məmmədov. – Bakı: Azərnəşr, – 1977. – 160 s.
5. Mustafayev, A. Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan / A. Mustafayev. – Bakı: ADPU, – 2013. – 302 s.
6. Naxçıvanda tarixi yer adları və ya mənəvi dəyərlərimiz erməni məkrinin daimi hədəfi kimi: [Elektron resurs] / ANL, -2011. URL: www.anl.az/down/meqal e/525/201 1/mart/162414.htm
7. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. – Bakı: Azərbaycan, – 2008. – 817 s.
8. Səmyuel, A.Vimz. Ermənistan-terrorçu "xristian ölkənin gizlinləri (ermənilərin böyük fırıldaq seriyaları), I c. / A.Səmyuel. – Bakı: OKA, – 2004. – 252 s.
9. Akgönül, S. Fransa ermeni toplumu ve Türkiye: propaganda ve lobbiçilik // Ermeni araştırmaları, – 2002. №5, – s.242
10. Kantarcı, Ş. ABD ve Kanadada ermeni diasporası: kuruluşları ve failiyyetleri // Ermeni araştırmaları, – 2001. № 3, – s.67-68.
11. Uras, E. Tarihde ermeniler ve ermeni meselesi / E.Uras, – İstanbul: Belge, – 1987. – 798 s.
12. Gasimova, T. Georgian failure Armenia, 15.03.2020 [Elektron resurs] https://regionplus.az/en/articles/view/7065


*Məqalə tarix üzrə elmlər doktoru, professor İsmayıl Hacıyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 15.01.2025, son daxilolma – 13.02.2025, qəbulolunma – 11.03.2025